ədalət 2019.- 25 iyun.- S.8.



# Şeir payı da var riyaziyyatın!

***Oqtay RZA***

### 1. Sıfır

Bir görün necədir, nəçidir sıfır,
Vurulsa - varlığı heç edir sıfır.
Sıfırın ortada dəyəri vardır,
Sağda yazılanda güc qat-qat artır.
Öndə görünəndə ziyansızdır o!
Sıfır müstəqildir, həyansızdır o!

***

Möhtərəm filosof! De, nədir həyat,
Bəlkə tamaşadır, səhnədir həyat?
Çatsın nəzərinə şöhrətpərəstin:
Sıfırdan-sıfıra yol gedir həyat!

### 2. Bir

Bir haray əsrlik səda olubdur,
Sinəmə sancılan cida olubdur -
Zəngəzur pay kimi verilib yada,
Naxçıvan quruda ada olubdur.

***

Bir böyük həsrətin sonsuz kədəri
Məni yandıracaq hər gün, həmişə:
Anam son mənzilə köçəndən bəri
Yadımdan çıxır ki, yadıma düşə!

***

Rəis hərdən gülümsəyir,
Bərkdən "bir-bir gəlin!" deyir.

***

Bircə sənsən gümanım,
Ümidim, and-amanım.

***

Bilinməzdi kövrəldiyim -
Gözüm yaşla dolmasaydı;
Uzaq səfər yaxşı şeydir,
"Birdən" sözü olmasaydı!

***

Birinci sinifdə oxuyanda mən
Dava tufanları gəlirdi Qərbdən.

***

Munis heyvanları sayır birbəbir:
Bir bəbir, bir ayı, bir pələng, bir şir.

### ***BİRGÜL***

Gəlib əlvan geyimli yaz,
Çiçək çıxıb dizə, Birgül!
"Bir gül ilə bahar olmaz",
İnanma bu sözə, Birgül.

Torpağı bərk qucaqladın,
Gah sevindin, gah ağladın;
Qiyamətdir hüsnün, adın,
Gəlməyəsən gözə, Birgül!

Oqtay Zənginin balası,
Yadındamı Qız qalası?
Əfsanəyə qulaq asıb,
Döndün oda, közə, Birgül!

Bir də seyr et Bakını sən,
Görün xoşbəxt, danış şən-şən.
Yanardağın zirvəsindən
Bax laləli düzə, Birgül!

Sülh şərqisi yaya-yaya,
Yet köməyə, çat haraya!
Salam apar Ankaraya,
Salam gətir bizə, Birgül!

### 3.Beş

Tam orta məktəbdə fəal olmuşam,
Dərslərdə "beş", yəni "əla" almışam.

***

Bir vaxt çoxmillətli Sovetlər vardı,
"Beşillik plan"la addımlayardı.

***

Bakıda hələlik rəqibi yoxdur -
Ona "Beşmərtəbə" deyənlər çoxdur.

***

Tamaşaya baxmaq üçün
Yaxın-uzaq gələrdi -
"Beşmanatlıq gəlin" onda
Tez-tez göstərilərdi.

***

Nizami sözlərdən inci düzərək,
Beş dastan yaradıb məşhur "Xəmsə"tək.

***

Dövlət rəmzləri yaxşı bəllidir,
Ulduz çox bayraqda beş guşəlidir.

***

Bu tüfəng keçmişdən miras qalandır,
Adı əvvəlkitək "Beşatılan"dır.

***

Kvintet - peşəkar beş musiqiçi,
Hamısı mehriban, xoş musiqiçi.

***

Hökm var çox uzun, hökm var qısa,
Verilib "Beşinci dəstə"yə cəza.

***

Anıram dağ aşıb, çay keçməyimi,
Məşhur "Beşbulaq"dan su içməyimi.

***

Tək-tək kristalın səthində hamar
"Pentaqon" adlanan beşbucaqlı var.

***

Dayandur şeirlə sağaldar yara,
Doğulub beş əziz qardaşdan sonra.

***

"Beşbarmaq" adlanan dağa qalxmışam,
Zirvədən Xəzərə xeyli baxmışam.

***

Gəzib dolaşmışam neçə diyarda,
Görəsən "Beştau" yerləşir harda?

***

Ölkədə həm uğur, həm yüksəliş var,
Çoxdandır həftədə beşgünlük iş var!

### 4.Yeddi

Qərinələr yola salan əsər var:
"Yeddi gözəl" - Nizamidən yadigar!

Göyün yeddi qatındakı ehtişam -
Ulduzların məclisidir hər axşam.

Yeddi oymaq. Yeddi oba. Yeddi kənd.
Sonuncunun təzə adı - Yenikənd.

"Yeddi oğul ..." filmimizi biz gərək
Mahal-mahal, diyar-diyar göstərək!

Göy qurşağı - fizikada spektr,
Səmadakı yeddi rəngli ipəkdir.

Bitirəndə yeddiillik məktəbi,
Yayılırdı təzə dövrün tələbi.

Həftədəki mərhələlər - yeddi gün,
Uğurlardan çələng hörək xalq üçün!

Ağacların altısı da cökəymiş,
Bağban gərək yeddincini əkəymiş.

Qışda yatan ayını yaz ayıldır,
Yeddinci ay həm temmuz, həm iyuldur.

Altı qardaş - altı dayım var idi,
Anam Xanım - "Bircəbacı" nur idi.

Başqalaşıb həm təcrübə, həm bilik...
Daha yoxdur sirkə qabı "yeddilik".

Xəzərdədir Yeddi gəmi adası,
Hərəsinin öz yükü, səs-sədası.

Nəhəng Atlantida qəflətən batır...
Yeddinci qurutək su altındadır.

Koroğlu zövq alıb hansı ədəddən?
Yeddi min yeddi yüz yetmiş yeddidən!